


# Quruculuq missiyası uğurla həyata keçirilir

***Qarabağ və Şərqi Zəngəzurda tikinti-quruculuq işləri getdicə geniş vüsət alır. İnfrastruktur obyektlərinin sürətlə inşası, tarixi-mədəni abidələrin bərpası, minatəmizləmə əməliyyatlarının miqyasının genişləndirilməsi bu ərazilərdə yaşayış məhəllələrinin, inzibati binaların tikilməsinə əlverişli imkan yaradır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mayın 10-da Füzuli və Şuşa şəhərlərinə səfərləri də bərpa-quruculuq prosesinin davamlı xarakter almasından, gündən-günə daha geniş ərazini əhatə etməsindən xəbər verir.***

İşğaldan azad edilən ərazilərin bərpa prosesi peşəkar tədris prosesinin qurulmasını, əmək bazarının, o cümlədən işəgötürənlərin tələbatlarına uyğun ixtisaslar üzrə kadr hazırlığının təmin olunmasını zəruri etdiyindən bölgədə yeni peşə təhsili müəssisələrinin yaradılması da qarşıda mühüm vəzifə kimi durur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Füzuli şəhərində peşə liseyinin təməlinin qoyulması da bu istiqamətdə həyata keçirilən önəmli layihələrdən biridir. Xatırladaq ki, bu tədris müəssisəsində qısamüddətli kurslar və ömürboyu təhsil proqramlarının reallaşdırılacağı nəzərdə tutulur.

Dövlətimizin başçısının rəhbərliyi ilə bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri çərçivəsində ermənilərin ekoloji sistemə vurduqları zərərin nəticələrinin aradan qaldırılması da diqqət çəkir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Füzuliyə səfərləri zamanı şəhərdə yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkmələri də bunun bariz ifadəsidir.

*(ardı 5-ci səhifədə)*

# Quruculuq missiyası uğurla həyata keçirilir



> ***Bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində çox genişmiqyaslı abadlıq işləri aparılır, şəhərlər yenidən qurulur, kəndlər yenidən salınır. Əlbəttə ki, bizim əsas vəzifəmiz keçmiş məcburi köçkünləri tezliklə bu doğma diyara qaytarmaqdır.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

*(əvvəli 1-ci səhifədə)*

Parkda görüləcək işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verilərək bildirilib ki, işğaldan azad olunan ərazilər minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirildikcə, digər quruculuq işləri kimi, ekoloji tarazlığın bərpası istiqamətində də ciddi addımlar atılır. İşğalçı Ermənistan tərəfindən məhv edilmiş yaşıllıq massivlərinin bərpası məqsədilə ağacəkmə tədbirləri uğurla davam etdirilir. Bu layihə Füzulidə də uğula icra olunur.

İşğaldan azad edilən ərazilərdə həyata keçirilən kompleks abadlıq-quruculuq tədbirləri çərçivəsində səhiyyə ocaqlarının inşası da xüsusi diqqət çəkir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən mayın 10-da Füzuli rayonunda təməli qoyulan 180 çarpayılıq ən müasir tələblərə cavab verən tibb müəssisəsinin qurulması bu bölgədə tibbi xidmətlərin səmərəli təşkilini şərtləndirir. Başqa sözlə, Fizuli Rayon Mərkəzi Xəstəxanası burada yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində mühüm infrastruktur layihələrindən biridir. Ən müasir tibbi avadanlıqla təchiz ediləcək tibb müəssisəsində müayinə və müalicə işinin yüksək səviyyədə aparılması üçün hər cür şəraitin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, gələcəkdə Füzulidə digər səhiyyə müəssisələrinin də tikintisi planlaşdırılıb. Belə ki, rayonda Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Tibbi Yardım Stansiyası, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin binalarının da inşa ediləcəyi nəzərdə tutulub.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində də bərpa-quruculuq layihələri sürətlə aparılır. Burada ölkə əhəmiyyətli mədəniyyət abidələri siyahısında olan Şirin su hamamı Heydər Əliyev Fondu tərəfindən tarixi görkəmi qorunub-saxlanılmaqla yenidən qurulur.

Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhərə səfər çərçivəsində Şirin su hamamında aparılan bərpa işləri ilə tanış olarkən, qədim mədəniyyət və memarlıq abidələri ilə zəngin Şuşanın 17 məhəlləsinin hər birində hamam, məscid və bulaq olması bildirilib. Şəhərin Mərdinli məhəlləsində yerləşən Şirin su hamamı 1880-ci ildə inşa edilib. Vaxtilə Şuşanın digər hamamlarında ərazilərdəki şor quyu suları işlədilib. Bu hamam isə Xan qızı Xurşidbanu Natəvanın Şuşaya çəkdirdiyi içməli şirin su ilə təchiz olunub. Məhz buna görə də hamam Şirin su hamamı adlandırılıb. Qeyd edək ki, 1986-cı ildə aparılan ölçü işlərindən sonra memar Ədalət Məmmədov tərəfindən hazırlanan layihə üzrə bu abidədə əsaslı bərpa-təmir işləri görülüb. Şirin su hamamı 1992-ci il mayın 8-də Şuşa şəhəri ermənilər tərəfindən işğal edilənədək öz təyinatı üzrə fəaliyyət göstərib. İşğal dövründə digər bütün abidələrimiz kimi bu qədim hamam da ermənilər tərəfindən dağıdılıb.

Şuşada erməni vandalizmi tərəfindən dağıntılara məruz qalan abidələr sırasında dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyevanın bərpa prosesi ilə tanış olduqları Mehmandarovların malikanə kompleksinin yenidən qurulması da Heydər Əliyev Fondu tərəfindən aparılır.

Yeri gəlmişkən, bu malikanə kompleksində mütəxəssislərin qiymətləndirməsi əsasında bərpa prosesi hazırda sürətlə icra olunur. Kompleksə məscid, kiçik və böyük yaşayış evləri daxildir.

Ötən müddətdə evin dam örtüyü orijinala uyğun quraşdırılıb, binanın tökülmüş bütün daşları, eyvanları, həmçinin kompleksə daxil olan məscidin uçmuş günbəzləri, damı və mehrabı bərpa edilib. Həyətdə bulağın bərpası yekunlaşıb, landşaft işlərinin hazırlığına başlanılıb.

Şuşa işğaldan azad olunandan dərhal sonra burada bərpa və yenidənqurma işlərinə başlanılıb. Şəhərdə qısa zamanda genişmiqyaslı quruculuq işləri görülüb. Mədəniyyət paytaxtımızda çoxsaylı tədbirlərin keçiriləcəyi, bu şəhərin keçmişdə olduğu kimi, indi də turistlərin istirahət üçün seçdikləri sevimli məkanlardan biri olacağı nəzərə alınaraq lazımi infrastrukturun yaradılmasına, o cümlədən otellərin inşasına start verilib. Ötən ilin mayında "Xarıbülbül" oteli, həmin otelin nəzdindəki 48 mənzilli korpus və kotteclər, avqustda isə "Qarabağ" otelinin yenidənqurmadan sonra açılışı reallaşıb.

Hazırda Şuşanın bərpası konsepsiyasında şəhərin turizm potensialı nəzərə alınaraq buna uyğun infrastrukturun yaradılması davam etdirilir. Belə obyektlərdən biri də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşaya səfər çərçivəsində ərazisində olduqları və bərpası həyata keçirilən "Shusha Boutique Hotel"dir. Burada şəhərə səfər edəcək ziyarətçilərin rahatlığı üçün hər cür şəraitin yaradılacağı, 13 otaq və kiçik restoranın qonaqların ixtiyarına veriləcəyi nəzərdə tutulur.

Şuşanın bərpası zamanı şəhərin enerji təchizatının da qaydaya salınması xüsusi diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə reallaşdırılan layihələr sırasında dövlətimizin başçısının açılışında iştirak etdiyi "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzi mühüm önəm daşıyır. "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına idarəetmə mərkəzində yaradılan şərait barədə məlumat verərək, bu obyektin istifadəyə verilməsinin şəhərin dayanıqlı və keyfiyyətli enerji ilə təchizatı baxımından əhəmiyyətli hadisə olduğunu bildirib. Vurğulayıb ki, ənənəvi üçpilləli 35/10-6/0,4kV-luq paylayıcı elektrik şəbəkələrinin yerinə Şuşada qurulan yeni dairəvi elektrik təchizat sxemi müasir dəringirişli ikipilləli 35/0,4kV-luq şəbəkələrlə əvəz edilib.

Məlumatda diqqətə çatdırılıb ki, yeni şəbəkənin istifadəyə verilməsi ilə ənənəvi 35/10 kV-luq yarımstansiyaların və 10 kV-luq elektrik verilişi xətlərinin tikintisi, saxlanma və istismar xərcləri aradan qaldırılacaq, texnoloji itkilər minimuma endirilməklə, ətraf mühit və canlı orqanizmlərə elektromaqnit sahə şüalanmasının mənfi təsiri azaldılacaq, xidmət heyəti və texniki nəqliyyat vasitələri ixtisar ediləcək, xidmətin keyfiyyəti yaxşılaşdırılacaq. Bununla yanaşı, 110/35/0,4 kV-luq şəbəkələri tam əhatə edən müasir SK-11 SCADA dispetçer idarəetmə sisteminin tətbiqi ilə şəbəkənin idarəetmə imkanları da genişlənəcək.

Yeri gəlmişkən, ilk dəfə olaraq SK-11 SCADA dispetçer idarəetmə sistemi ilə müasir rəqəmsal şəbəkə modelində aşağı gərginlik (0,4 kV) dövrələrini son istehlakçıyadək nəzarətdə saxlamaq mümkün olur.

Əvvəllər paylayıcı şəbəkələrdə dispetçer idarəetmə sistemi yalnız yüksək gərginlikli xətləri əhatə edirdisə, hazırda bu imkanlar daha da genişləndirilib. Nəticədə elektrik enerjisinin alış nöqtəsindən abonent sayğacınadək idarə olunması, enerji balansı, keyfiyyəti, fasiləsiz çatdırılması, qəza hallarında avtomatik bərpa edilməsi, elektroenergetika sənədləşmə sahəsində ilk dəfə olaraq kağız daşıyıcılarından elektron jurnala keçidlə şəbəkələr haqda məlumatların qeydiyyatının aparılması və arxivləşdirilməsi yeni SK-11 sistemi üzərindən idarə edilərək tam nəzarətdə saxlanılır.

İlk dəfə Şuşada tətbiq edilən 35/0,4 kV-luq şəbəkələrin Rəqəmsal İdarəetmə Mərkəzi digər yarımstansiyalarla dairəvi əlaqələndirilmə imkanlarına malik olub Şuşa şəhərinin dayanıqlı və fasiləsiz elektrik enerjisi təchizatını təmin edir.

Şuşada bərpa-quruculuq layihələr təkcə sadalananlarla kifayətlənmir. Prezident İlham Əliyevin Böyük qayıdış strategiyasında başlıca prioritetlərindən biri də Qarabağ və Şərqi Zəngəzurda sosial şəraitin ən yüksək səviyyədə yaradılmasıdır. Məqsəd keçmiş məcburi köçkünlərin bu ərazilərdə yaşayışının mütərəqqi beynəlxalq təcrübəyə və innovativ yanaşmaya əsaslanan çevik mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq prinsiplərinin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməsidir. Bu baxımdan düşməndən təmizlənən ərazilərdə "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"nin (DOST Agentliyi) yerli qurumlarının təşkili də mühüm önəm daşıyır. Bu konsepsiyanın gerçəkləşdirilməsi məqsədilə azad edilmiş ərazilərdə "DOST" mərkəzlərinin təşkili planının hazırlanması bunun parlaq ifadəsidir.

Xatırladaq ki, cari ilin sonuna qədər Şuşa şəhərində Qarabağ regionunda ilk "DOST" mərkəzinin fəaliyyətə başlayacağı nəzərdə tutulur. Hazırda bununla əlaqədar layihə işləri gedir.

Yuxarıda vurğulananlara əsaslanıb qeyd edə bilərik ki, Azərbaycan hazırda özünün ən şərəfli, məsuliyyətli və tarixi dövrünü yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq layihələri xalqımızı tərəqqiyə, daha parlaq gələcəyə aparır. Bununla da dövlərimizin başçısının Prezident seçilərkən vəd etdiyi "hər bir azərbaycanlının Prezidenti olacağı" sözlərinin dövlət başçısının titanik fəaliyyəti ilə artıq təsdiqləndiyi sübut edilir.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***